Aqrar Xidmətlər Agentliyi

# Alma güvəsi
# (Yponomeuta malinellus) (Zeller)



088-588
axa.gov.az

## Zərərli orqanizm haqqında

Gümüşü-ağ rəngli kəpənəkdir. Qanadlarını açdıqda ucları arasında məsafə 20 mm-dir. Məhsula hücum çəkir. Güclü yayıldıqda bitkilərə böyük ziyan vurur: meyvələr tökülür, gələn ilki məhsulun əsası qoyula bilmir. Tırtıl fazasında alma, armud və heyva meyvələri üçün böyük təhlükə mənbəyidir. Tırtıllar 16 mm uzunluğunda olub üzəri şaxtadan mühafizəsi məqsədilə sipərlə örtülüdür. Tırtıllar sarı rəngli olub üzərindən iki cərgə qara nöqtələr gedir. Bir dişi fərd 70 ədəd yumurta qoyur. Yumurtalar yapışqan kütlədən ibarət sipərciklə örtülüdür. Yazda yumurtalardan tırtıllar çıxır.

## Mübarizə tədbirləri

Yarpaqbükənə qarşı mübarizədə zədələnmiş və bükülmüş yarpaqların tırtıllarla birgə məhv edilməsi vacib proseslərdədəndir. Bu zaman əlcəklərdən istifadə olunmalı və yığılmış kütlə bağdan kənarda yandırılmalıdır. Bununla yanaşı, müvafiq insektisid preparatlarının tətbiqi də məqsədəuyğundur. Bağ sahəsində yarpaqbükən geniş yayıldıqda kimyəvi insektisidlərdən istifadə edilir. Əgər 25 yarpaqdan 5-də tırtıllar aşkarlanarsa, onda kimyəvi mübarizə aparılır.Yadda saxlamaq lazımdır ki, eyni preparatdan davamlı şəkildə istifadə olunması zərərvericilərdə həmin preparata qarşı davamlılıq yaradır. Ona görə də insektisidlərdən növbəli şəkildə istifadə olunmalıdı



## Zədəsi